# Umudluya gedən yol

*Dağların sinəsindən, dərələrin dərinliyindən, sal qayaların kölgəsindən, sıldırım yarğanların yaxasından sıyrılıb keçən yollar işğaldan azad edilmiş yerlərə ümid, gələcək, firavan həyat, ayağı sayalı günlər, bir könüldən min könüldə çağlayan sevinc, xoş ovqat, otuz ilə yaxın həsrətini çəkdiyimiz qədim yurd yerlərinə şərəfli həyat qaytarır.*





Qarabağda və Şərqi Zəngəzurda tikinti-quruculuq dövlət başçısı tərəfindən təsdiq edilmiş plan əsasında aparılır. Heç yerdən və heç kimdən kömək gözləmədən dövlətimizin öz gücüylə, öz iradəsilə misli görünməyən işlər həyata keçirilir, nəhəng layihələr icra olunur. Hayların Qarabağda və Şərqi Zəngəzurda törətdikləri faşist işğalına don geyindirməyə çalışan havadarlarının xristian təəssüfkeşliyinə qəhrəman oğullarımızın gücü ilə ağır zərbələr vuruldu. İnam, qələbə, zəfər, qürur, şərəf, qəhrəmanlıq yolunu Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun bölmələri döyüş meydanlarında açdılar, düyünə salınmış, qarşısı bağlanmış bütün yolların taleyinə gün doğdu. Liderimiz iki yüz illik erməni işğalının qıfıllarını qırıb tökdü, düşməni həm fiziki cəhətdən və həm də mənən məğlub etdi, itirilmiş torpaqları , şərəfi, ləyaqəti geri qaytardı, doğma xalqına bitib-tükənməyən sevinc yaşatdı. Uzun illər boyu Qarabağa və Şərqi Zəngəzura gedən yollar işğalçı haylar tərəfindən tamamilə dağıdılmışdı, şəhərlər, kəndlər yer üzündən silinmişdi. Tarixi qələbədən sonra Azərbaycan ermənilərin qəsdən və bilərəkdən törətdikləri bir xarabalıqla üz-üzə qaldı. Həyat və uğur düsturunu, qələbə dastanını yazan Liderin ilk tapşırığı məhz yeni yolların çəkilməsi ilə bağlı oldu. Hazırda azad edilən ərazilərdə onlarla yol infrastrukturu qurulur, istifadəyə verilir, körpülər tikilir, Qarabağın və Şərqi Zəngəzurun yolları qan dövranı kimi tənzimlənir. Bu yollar quruculuğun, inkişafın, Böyük Qayıdışın ahəngi ilə döyünür, şad xəbərlər, müjdələr, arzular, ümidlər daşıyır.

Azad edilən ərazilərdə quruculuq və bərpa ilk növbədə işğal illərində dağıdılan yolların tikintisi, yol qovşaqlarının qurulması, körpülərin salınmasından başlandı. Məhz ilk infrastruktur layihələr də düşmən tərəfindən dağıdılan və yararsız vəziyyətə salınan geniş yol şəbəkəsinin yenidən qurulmasını əhatə edir. Artıq bir neçə həyat əhəmiyyətli yol istifadəyə verilib. Fərəhli haldır ki, Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdış da məhz bu yollardan başlayıb və uğurla davam edir. Yeni yollar Qarabağda və Şərqi Zəngəzurda başlanan dirçəlişin döyünən nəbzi, inkişafın arteriyasıdır, bu yerlərə xoşbəxt həyatın qayıtmasından xəbər verir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısı İlham Əliyevin müəyyən etdiyi strategiya, tövsiyyəsi və tapşırığı ilə icra olunan yol infrastruktur layihələri işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edəcək. Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planında 2022-2026-cı illər ərzində Qarabağ və Şərqi Zəngəzurda 20 avtomobil yol layihəsi icra ediləcək. Bu istiqamətdə ardıcıl və davamlı işlər həyata keçirilir. Artıq yol layihələrinin bir çoxunun icrası uğurla başa çatdırılıb. Onlardan biri də Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən yoldur.

Dağların ətəyində, meşələrin əhatəsində yerləşən Umudlu kəndi Ağdərə rayonu ərazisində, Sərsəng su anbarının yaxınlığında yerləşir. Kənd özünün strateji əhəmiyyətilə seçilib. Buna görə də Umudlu kəndi daim ermənilərin xüsusilə diqqətində olan yaşayış məkanlarından biri olub. XX əsrin əvvəllərində 1905-ci il dekabr ayının 26-da ermənilərin törətdikləri soyqırımı da bu kəndin sakinlərinə qarşı həyata keçirilib. Aradan illər ötdükcə Umudlu sakinləri yurd yerlərinə qayıdaraq kəndlərini yenidən qurub, yaradıb və dirçəldiblər. Hər tərəfdən erməni kəndlərinin əhatəsində olan Umudlu 1992-ci ilin 28 fevralında Ermənistan tərəfindən işğala məruz qalıb. 2023-cü ilin sentyabr ayında keçirilən antiterror əməliyyatı zamanı kənd işğalçılardan təmizlənib. Tarixlər şahidi, igidlər məskəni Umudlu Tərtər vadisində, dağlar gözəli, başının üstündə əzəmətli Murov ucalır, hüsnünə Göygölün əkiz bacısı Sərsənggöl ayna tutur. Kənddə qədim Alban abidələrinin qalıqları durur. Umudlunun iki qapısı var. Qərbdən Çərəkdar və şərqdən isə Sərsəng körpüsüdür (Sərsəng körpüsü, XIII əsr). Azərbaycanın dövlət siyasətində yol infrastrukturunun yaxşılaşdırılması prioritet istiqamətlərdəndir. Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər işğaldan azad olunmuş ərazilərdə də sürətlə davam etdirilir. Bu ərazilərdə icra olunan yol layihələri yenidən öz doğma torpaqlarına qayıdan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından da önəm daşıyır. Həyata keçirilən yenidənqurma bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına da töhfə verəcək. Prezident İlham Əliyevin ötən il imzaladığı Sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib. Ümumi uzunluğu 9,4 kilometr olan avtomobil yolu dördüncü texniki dərəcəlidir. Yol bir gediş, bir gəliş olmaqla, iki zolaqdan ibarətdir və hərəkət hissəsinin eni 6 metrdir. Yenidənqurma işləri çərçivəsində torpaq yatağının genişləndirilməsi işləri həyata keçirilib, yağış sularının kənarlaşdırılması məqsədilə suötürücü borular quraşdırılıb, beton küveytlər inşa edilib. Yol əsası tikilərək iki lay asfalt-beton örtük döşənilib. Nəqliyyatın hərəkətinin rahat və təhlükəsizliyini təmin etmək məqsədilə zəruri tədbirlər görülüb. Belə ki, yolboyu üfüqi xətlənmə işləri həyata keçirilib, yol nişanları quraşdırılıb. Avtomobil yolunun dağlıq ərazidən keçdiyini nəzərə alaraq, sərt döngələrdə metal təhlükəsiz çəpərləri istifadə olunub.

Qeyd edək ki, martın 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər. İndi Azərbaycanın dilbər guşələrinə, ana təbiətin gözəllikdən don biçdiyi, buz bulaqları, yaylaqları ilə adamı ovsunlayan yurd yerlərinə yeni yollar çəkilir, dağların altından keçən tunellər tikilir. Bu da imkan verəcək ki, bütün fəsillərdə həmin yollardan istifadə edilsin. Qələbə və Zəfər yolları Qarabağın işğaldan azad edilmiş 300-dən çox kənd və şəhərinə yenidən həyat gətirəcək, firavanlıq, tərəqqi, xoşbəxt həyatın müjdəçisidir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 2 aprel (№62).- S.19.